**Zərbəliyev, C.** Memar ömrü: Əcəmi Naxçıvani: "Biz gedərik - bizdən xatirə qalar" / Ceyhun Zərbəliyev // Mədəniyyət.-2010.- 29 oktyabr.- S. 8.

XI-XII əsrlər Azərbaycanda mədəniyyətin intibah dövrü kimi xarakterizə edilir. Nizami Gəncəvi, Qətran Təbrizi, Bəhmənyar, Xətib Təbrizi, Xəqani Şirvani, Ömər Kafiəddin, Məhsəti Gəncəvi kimi böyük sənətkarlar bu dövrdə yaşayıb-yaradıblar.

Tariximizin bu mühüm mərhələsinin sənət və mədəniyyət intibahından danışarkən Şərqin görkəmli memarı Əcəmi Əbubəkr oğlu Naxçıvanini yada salmamaq mümkün deyil.

**"Mühəndislər mühəndisi"**

XII əsrdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olan Naxçıvan şəhərinin əhəmiyyətinin artması ilə əlaqədar olaraq burada sənətkarlıq və inşaat xeyli genişlənmişdi. Yerli ənənələr burada Azərbaycan memarlığı ilə birləşərək özünə xas bir siması olan memarlıq məktəbi yaradırdı. Qısa müddətdə naxçıvanlı sənətkarlar nəinki qarşılarında duran memarlıq-inşaat problemlərini müvəffəqiyyətlə həll edə bildilər, hətta o dövrdə Azərbaycan memarlığının zirvəsini təşkil edən əsərlər yaratmağa nail oldular.

Bu sənətkarların məşhuru isə Əcəmi Naxçıvani idi. XIII əsr mənbələrində onun "Şeyx-ül-mühəndis" (mühəndislərin başçısı) rütbəsi daşıdığı qeyd olunur. Memar Əcəmi əsərlərində təkcə bədii təfəkkür dərinliyi, zövq incəliyi deyil, eləcə də geniş riyazi biliyə və zəngin yaradıcılıq təcrübəsinə əsaslanan mühəndislik dühası nümayiş etdirirdi.

Əcəmi yaradıcılığında kərpic hörgüsü, kərpicdən quraşdırılmış inşaat quruluşları, müxtəlif biçimli kərpicin məharətlə tətbiqi və kərpicin birrəngli yeknəsəqliyindən uzaqlaşmaq üçün rəngi kaşı və gəc ünsürlərinin memarlıq bəzəyinə daxil edilməsi səciyyəvidir. Sənətkar əsərlərinin kompozisiya və həcm quruluşunda ümumşərq memarlığında görkəmli yer tuta bilən üsullar yaradır və tətbiq edirdi. Onun əsərlərində memarlıq kompozisiyaları üçün monumentallıqla bərabər, zəriflik də diqqəti cəlb edən xüsusiyyətdir. Onun həndəsi ornament quruluşu yaratmaq məharəti inşaatda çox səmərəli yolla istifadə edilirdi.

Əcəmi Naxçıvani memarlıq sənətinin başlıca problemlərindən olan tektonikliyin (arxitektonika) dünya memarlığında az təsadüf edilən parlaq həllini tapmış mühəndis və sənətkar olub. Onun yüksək mühəndislik qabiliyyəti Qərbi Avropa memarlarından bir əsr əvvəl Möminəxatun türbəsinin sərdabəsində qurduğu tağlar sistemində, Cümə məscidinin nəhəng günbəzində və qoşa minarələrdə özünü göstərir.

**Dünya memarlığının nadir nümunəsi**

Əcəmi Əbubəkr oğlunun dövrümüzə çatmış ən gözəl əsəri olan Möminəxatun türbəsi bu gün orta əsrlər Naxçıvanının əzəmətini əks etdirir, Əcəmi memarlıq məktəbinin bir şahidi kimi şəhərin mərkəzində yüksəlir. Bu sənət əsərində Əcəmi qülləli türbələrə xas olan bütün xüsusiyyətləri özünün əvvəlki əsərlərindən də daha aydın və parlaq ifadə edib. Tədqiqatçıların fikrincə, onun memarlıq həllində kompozisiya fəndləri, memarlıq forma və üsulları daha mükəmməl inkişafa malik olmuşdur.

Türbənin sərdabəsi planda onbucaqlıdır. Aşırımı on metrə yaxın sərdabəni yastı kərpic günbəzlə örtmək olmazdı. Örtülsəydi də belə günbəzli sərdabə uca üst qüllə üçün dayanıqlı özül yaratmazdı. Bu səbəbdən Əcəmi alt qatın möhkəmliyinə xüsusi fikir verib, ucaltdığı sərdabənin ortasında qalın onüzlü dayaq qoyub. Dayağın üzləri yan tərəflərə sivri tağbəndlərlə birləşdiyindən göbələkvari bütöv və dayanıqlı örtük konstruksiyası yaranıb.

**Əcəmi sənətini yaşadan memarlıq ənənələri**

Yazılı mənbələr göstərir ki, Əcəmi dövründə Naxçıvanda 250 min nəfər əhali yaşayıb. Şəhərdə Əcəmi Naxçıvaninin layihəsi əsasında möhtəşəm arxitektura kompleksi ucaldılmışdır. Nəhəng bir ərazidə Eldənizlərin sarayı, Cümə məscidi, xatirə abidələri, mədrəsə, karvansara və digər hökumət tikililəri də inşa edilib. Həmin tikililərdən dövrümüzə yalnız iki məqbərə gəlib çatsa da, Naxçıvanda saray ansamblının mövcudluğu XIII əsrdə anonim bir müəllif tərəfindən farsca yazılmış "Əcaib əd-dünya" adlı əsərdə müəyyən dərəcədə təsdiq edilir. Həmin əsərdə bu cümləri oxumaq olar: "Naxçıvan Azərbaycanda yüksək bir yerdə salınıb və möhkəmləndirilib, əhalisi gur olan iri şəhərdir. Burada çoxlu saraylar, şəhərətrafı qalalar, malikanələr qurulub. Şəhərin yaxınlığında daşdan qalalar, qalanın içində isə mədrəsə və məscidlər tikilib. Qalanın içində həmçinin gözəl bir bulaq var. Bütün inşaat kirəcdən və bişmiş kərpicdən aparılırdı...".

Yeri gəlmişkən Marağadakı Göy günbəzdə (1196-cı il), Naxçıvan yaxınlığındakı Gülüstan türbəsində (XIII əsr), Qarabağlar, Bərdə və Salmas türbələrində (XIV əsr), türk memarı Memar Sinanın (XVI əsr) İstanbulda ucaltdığı türbələrdə Əcəmi sənətinin ənənələri yaşayır.

Fəqət tarix bu böyük sənətkarın nə doğum tarixini yadda saxlayıb, nə vəfatı gününü. Onun harada dünyasını dəyişməsi də heç bir yazılı mənbədə qeyd olunmur. Tarix öz qoynunda Əcəminin həyatı haqda onun ölməz əsərlərindən başqa heç nə saxlamayıb. Bəlkə də, dahi memar bunu qabaqcadan gördüyündən öz şah əsəri — Möminəxatun türbəsi üzərində belə yazmışdı: "Biz gedəriyik. Dünya əbədi qalandır. Biz gedəcəyik, dünya qalacaq. Biz ölərik - bu, bizdən xatirə qalar".